<u>**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**</u>

<u>**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**</u>

**Təsdiq edirəm:**
**“İqtisadiyyat” kafedrasının**
**müdiri: i.ü.f.d., dos.S.İ.Hümbətova**
**12 sentyabr 2025-ci il**

**“AQRAR İQTİSADİYYAT” fənni üzrə**
**İŞÇİ TƏDRIS PROQRAMI**
**(Sillabus)**

## I. Fənn haqqında məlumat

| | |
|---|---|
| **Fənnin kodu:** | **00148** |
| **Fənnin növü:** | **məcburi** |
| **Tədris ili:** | **2025** |
| **Tədris semestri:** | |
| **Fakültə:** | **İqtisadiyyat və idarəetmə** |
| **Qrup:** | |
| **Tədris yükü:** | **saat (mühazirə-30 saat/məşğələ-30saat)** |
| **Kredit sayı:** | **4 (dörd)** |
| **Kafedra:** | **İqtisadiyyat** |

## II. Müəllim haqqında məlumat

Fənni tədris edən müəllim:

E-mail ünvanı:

İş telefonu:

Tələbələr üçün qəbul vaxtları:

## III. Fənnin təsviri

“Aqrar iqtisadiyyat” fənni kənd təsərrüfatı sektorunun iqtisadi əsaslarını, resurslardan səmərəli istifadə prinsiplərini və aqrar siyasətin formalaşma mexanizmlərini öyrənməyə yönəlib. Fənn kənd təsərrüfatı istehsalının iqtisadi təhlil metodlarını, aqrar bazarların fəaliyyət prinsiplərini, fermer təsərrüfatlarının idarə olunması üsullarını və kənd yerlərinin sosial-iqtisadi inkişafını əhatə edir.
Tədris prosesi tələbələrə aqrar sahədə iqtisadi əlaqələrin xüsusiyyətlərini dərk etməyə, məhsuldarlığın artırılması və dayanıqlı kənd təsərrüfatı inkişafı üçün strategiyalar hazırlamağa imkan yaradır. Eyni zamanda fənn tələbələrə müasir iqtisadi düşüncə tərzi və aqrar siyasət istiqamətləri barədə praktiki biliklər qazandırır.

Bununla yanaşı aqrar iqtisadiyyat fənni bazar münasibətlərinə uyğun olaraq aqrar istehsalın inkişaf etdirilməsi metodlarını təsərrüfatların potensial imkanlarından daha səmərəli istifadə edilməsi istiqamətlərini, habelə ayrı-ayrı məhsulların emalı, satışı, iqtisadi səmərəlilik göstəricilərini aşkar etmək və tətbiq etmək imkanlarını öyrənir. Həmçinin bu fənn aqrar sahədə iqtisadi mexanizmin təkmilləşdirilməsi, istehsala xidmət, müəssisələrin maddi-texniki təchizatı, istehsal və sosial infrastrukturun, ətraf mühitin mühafizəsi, ekoloji cəhətdən təmiz məhsul istehsalı, investisiya siyasəti, istehsalın intensivləşdirilməsi, idarəetmə prinsipləri, metodları, kənddə məşğulluqla bağlı məsələləri öyrənir.

## IV. Fənnin məqsədi və vəzifələri

Kursun məqsədi tələbələrə aqrar sektorun iqtisadi əsasları, bazar mexanizmləri, dövlətin aqrar siyasəti və kənd təsərrüfatı menecmenti sahəsində nəzəri və praktiki biliklər verməkdir. Bazar iqtisadiyyatı şəraitində daxili resursların aşkara çıxarılıb istifadə olunmasına, minimum əmək və vəsait sərfi müqabilində məhsul istehsalı artımına səmərəliliyin yüksəldilməsinə, ekoloji cəhətdən təmiz məhsul istehsalına nail olmaqdır.

Aqrar iqtisadiyyat fənninin tədqiqat obyektinə müxtəlif quruluşlu təsərrüfatlar, müəssisələr, təşkilatlar, başqa özəl qurumlar daxildir. Bu elm sahəsi kənd təsərrüfatı məhsulları istehsal və emal edən müəssisə və təşkilatların inkişaf

qanunauyğunluqlarını araşdırmaqla öz elmi, praktiki nəticələri ilə dövlətin iqtisadi siyasətinin həyata keçirilməsinə xidmət edir.

**Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:**

- Aqrar sektorun iqtisadi strukturunu və funksiyalarını izah edə bilmək;
- Kənd təsərrüfatı istehsalında resurslardan səmərəli istifadə yollarını müəyyənləşdirmək;
- Aqrar bazarların fəaliyyət prinsiplərini təhlil edə bilmək;
- Aqrar siyasətin formalaşdırılmasında dövlətin rolunu qiymətləndirmək;
- Aqrar müəssisələrin idarəetmə problemlərinə iqtisadi yanaşma tətbiq edə bilmək.

**V. Fənnin mühazirə mətnləri** Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında universitetin veb saytındakı tələbə kabinetində yerləşdirilir

## VI. Fənnin tədris metodologiyası

"Aqrar iqtisadiyyat" fənninin tədrisi müasir pedaqoji yanaşmalara əsaslanaraq nəzəri biliklərlə praktik tətbiqlərin inteqrasiyasını təmin edən kompleks metodologiya əsasında təşkil olunur. Tədris prosesi tələbəyönümlü, interaktiv və analitik düşüncənin inkişafına istiqamətlənmiş şəkildə qurulur.

Fənnin tədrisində aşağıdakı metodoloji yanaşmalar əsas götürülür:aqrar bazarların iqtisadi mahiyyəti, kənd təsərrüfatında resursların bölüşdürülməsi, aqrar siyasət alətləri, ərzaq təhlükəsizliyi və davamlı inkişaf məsələləri elmi əsaslandırılmış şəkildə təqdim edilir. Nəzəri biliklərin verilməsi zamanı səbəb–nəticə əlaqələrinin açılması və iqtisadi qanunauyğunluqların izahı prioritet təşkil edir.

## VII. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr aşağıdakılara nail olmalıdırlar:

**Bilməlidirlər:**

-Aqrar iqtisadiyyatın əsas anlayışlarını, kateqoriyalarını və iqtisadi qanunauyğunluqlarını

- Kənd təsərrüfatı istehsalının iqtisadi xüsusiyyətlərini və digər sahələrdən fərqlərini

-Aqrar bazarların formalaşma mexanizmini, tələb və təklif amillərini, qiymətlərin təşəkkül xüsusiyyətlərini

-Aqrar siyasətin məqsəd və alətlərini (subsidiya, kvota, vergi güzəştləri və s.)

- Ərzaq təhlükəsizliyi, davamlı inkişaf və resurslardan səmərəli istifadə prinsiplərini

**Bacarmalıdırlar:**

-Aqrar istehsalın iqtisadi göstəricilərini (xərclər, gəlir, mənfəət, rentabellik) hesablayır və təhlil etməyi

-Kənd təsərrüfatında resursların (torpaq, əmək, kapital) istifadəsinin səmərəliliyini qiymətləndirməyi.

- Aqrar bazarlarda baş verən dəyişikliklərin istehsalçı və istehlakçılara təsirini analiz etməyi.
- Statistik məlumatlar əsasında aqrar sektorun inkişaf meyillərini şərh etməyi

-Aqrar layihələrin və investisiya təşəbbüslərinin iqtisadi əsaslandırmağı

-GMO məsullari ekoloji cəhətdən təmiz məhsullardan fərqləndirməyi

## VIII. Prerekvizitlər

Yoxdur.

## IX. Fənnin mühazirə mövzuları

| | Mövzular | Öyrənmə hədəfləri | |
|---|---|---|---|
| 1 | **Aqrar sektorun xüsusiyyətləri və milli iqtisadiyyatda yeri** | - “Aqrar iqtisadiyyatı” kursunun predmeti və vəzifələri;<br>- Kənd təsərrüfatı istehsalının xüsusiyyətlərini;<br>- Aqrar sektorun iqtisadi inkişafda rolu;<br>- Azərbaycanda aqrar sektorun ölkə iqtisadiyyatında yeri haqında. | - “Aqrar iqtisadiyyatı” kursunun predmeti və vəzifələrinə dair biliklərə;<br>- Kənd təsərrüfatı istehsalının xüsusiyyətlərinə dair biliklərə;<br>- Azərbaycanda aqrar sektorun ölkə iqtisadiyyatında yeri haqında biliklərə. |
| 2 | **Aqrobiznesin strukturu və kənd təsərrüfatı subyektlərinin növləri** | - Aqrobiznesin xüsusiyyətləri və funksiyaları;<br>- Aqrosənaye inteqrasiyasının formalarını;<br>-Kənd təsərrüfatı müəssisələri, ailə kəndli təsərrüfatlar və ev təsərrüfatlarına dair bilikləri;<br>Kənd təsərrüfatı kooperasiyası və formalarını. | Aqrobiznesin təçkilinə dair ilkin bacaqrıqlara;<br>- Aqrosənaye inteqrasiyasının formalarına dair biliklərə;<br>-Kənd təsərrüfatı müəssisələri, ailə kəndli təsərrüfatlar və ev təsərrüfatlarına dair biliklər;<br>Kənd təsərrüfatı kooperativlərinin təşkilinə dair ilkin bacarıqlara; |
| 3 | **Kənd təsərrüfatı məhsullarının istehsalı və təklifi** | - İstehsal xərcləri və istehsal funksiyasını;<br>- Əvəzetmə əmsalı və əvəzetmənin elastikliyini; | - “Alternativ xərclər” yanaşmasından və istehsal funksiyasından istifadə etmək;<br>- Əvəzetmə əmsalı və əvəzetmənin elastikliyinin hesablamaq; |

| | | | |
|---|---|---|---|
| | | - Qısamüddətli və uzunmüddətli dövrlərdə istehsalın həcminin formalaşması xüsusiyyətlərini;<br>-Kənd təsərrüfatı məhsullarının təklifinə təsir edən amilləri;<br>- Kənd təsərrüfatı məhsullarının təklifinin qiymətə və gəlirlərə görə elastikliyini. | -Qısamüddətli və uzunmüddətli dövrlərdə istehsalın həcminə dair qərar vermək;<br>-Kənd təsərrüfatı məhsullarının təklifini qiymətləndirmək;<br>- Kənd təsərrüfatı məhsullarının təklifinin qiymətə və gəlirlərə görə elastikliyininin hesablamaq əsasında istehsalın həcminə dair qərar vermək. |
| 4 | **Kənd təsərrüfatı məhsullarına tələb** | - Kənd təsərrüfatı məhsullarına tələbin formalaşmasına təsir edən amilləri;<br>- Kənd təsərrüfatı məhsullarına tələbin qiymətə və gəlirlərə görə elastikliyini;<br>- Kənd təsərrüfatı və ərzaq məhsullarına tələbin xüsusiyyətlərini;<br>- Engel qanununu. | - Kənd təsərrüfatı məhsullarına tələbə ayrı-ayrı amillərin təsirini təhlil etmək;<br>- Qiymət və gəlirlərdən asılı olaraq kənd təsərrüfatı məhsullarına tələbin həcmini qiymətləndirmək;<br>- Kənd təsərrüfatı və ərzaq məhsullarına tələbin xüsusiyyətlərinə dair biliklərə. |
| 5 | KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ BAZAR STRUKTURLARI | - Kənd təsərrüfatı məhsulları bazarlarında rəqabət;<br>- Kənd təsərrüfatı məhsulları üzrə bazar strukturlarını;<br>- Kənd təsərrüfatı məhsulları bazarlarında tarazlığı | - Kənd təsərrüfatı məhsulları bazarlarında rəqabət səviyyəsinə uyğun istehsalın həcminə dair qərarlar vermək;<br>- Kənd təsərrüfatı məhsulları üzrə bazar strukturlarına uyğun istehsalın həcmi və qiymətə dair qərarlar vermək; |
| 6 | **Aqrar sektorda istehsal amilləri** | - Kənd təsərrüfatı istehsalının amillərini;<br>- Torpaq bazarı və onun xüsusiyyətlərini;<br>- Kənd təsərrüfatında əsas kapitala dair bilikləri;<br>- Aqrar sektorda əmək bazarının xüsusiyyətlərini;<br>- Azərbaycanda kənd təsərrüfatı istehsalının toxum, yem, su, mineral gübrə, pestisid, aqrar xidmətlər və digər material və xidmətlərlər təminatı. | - Kənd təsərrüfatı istehsalı amillərinin tərkibini, torpaq və əmək bazarının fəaliyyət xüsusiyyətlərini, əsas və dövriyə kapitalı ilə təminat səviyyəsini qiymətləndirməklə bunlara dair qərar vermək imkanlarına. |
| 7 | **Aqrar sektorda torpaq münasibətləri** | - Aqrar istehsalın amili kimi torpağın xüsusiyyətlərini.<br>- Torpaq islahatlar<br>- Torpaq kadastrı və kənd təsərrüfatı yerlərinə (uqodiyalarına) dair biliklər. | - Torpağın kənd təsərrüfatının istehsalında roluna, torpaq islahatlarını əhəmiyyətinə dair biliklərə;<br>- Kənd təsərrüfatı torpaqlarının uqodiyalara görə kənd təsərrüfatı |

| | | | |
|---|---|---|---|
| | | - Torpaq rentası və torpağın qiymətinə dair biliklər;<br>Torpaq üzərində mülkiyyət və torpaqların icarəsi | istehsalı imkanlarınının ilkin qiymətləndirilməsi bacarıqlarına;<br>- Torpaq rentası və torpağın qiymətinə dair qəymətləndirmələr aparmaq bacarığına. |
| 8 | **Kənd yerlərində məşğulluq və kənd təsərrüfatında əmək münasibətləri** | - Kənd yerlərində əmək ehtiyatları, iqtisadi fəal əhali və məşğul əhaliyə dair biliklərə;<br>- Kənd yerlərində kənd təsərrüfatının məşğulluğun təmin edilməsində rolu.<br>- Aqrar sektorda əmək münasibətlərinin tənzimlənməsi<br>- Ailə-kəndli təsərrüfatlarında, kooperativlərdə və kommersiya müəssisələrində əmək münasibətlərinə və əməyin ödənilməsi | - Kənd yerlərində kənd təsərrüfatının məşğulluğun təmin edilməsində rolunu qiymətləndirmək bacarıqlarına;<br>- Aqrar sektorda əmək münasibətlərinin tənzimlənməsi və əməyin ödənilməsi formalarını qiymətləndirmək bacarıqlarına. |
| 9 | **Texnoloji dəyişikliklər və infrastrukturun inkişafı** | - Aqrar  sektorda innovasiyaların xüsusiyyətlərinə və bu sahədə baş verən texnoloji dəyişikliklərə dair bilikləri;<br>- Aqrar iqtisadiyyatda rəqəmsal texnologiyaların tətbiqinin əsas şərtləri və amilləri.<br>- Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi və aqrar sektorda instusional, istehsal və sosial infrastrukturu | Aqrar  sektorda texnoloji dəyişikliklər, rəqəmsal texnologiyaların tətbiqinə, Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə və instusional, istehsal və sosial infrastrukturun inkişafına dair qərarların hazırlanmasında iştirak etmək üçün bacarıqlara. |
| 10 | **“Yaşıl iqtisadiyyat” və aqrar iqtisadiyyatda ekoloji cəhətdən təmiz məhsulların istehsalı** | - Kənd təsərrüfatının dayanıqlı inkişafın xüsusiyyətləri və “Yaşıl iqtisadiyyat”ın əsas istiqamətlərini;<br>- Ekoloji cəhətdən təmiz məhsullar istehsalı;<br>- Azərbaycanda kənd təsərrüfatının dayanıqlı inkişafının ekoloji aspektlərini. | Kənd təsərrüfatının dayanıqlı inkişafına, “Yaşıl iqtisadiyyat”ın prinsiplərinin tətbiqinə,  ekoloji cəhətdən təmiz məhsullar istehsalına dair tədbirlərinin hazırlanmasında bacarıqlara.<br>. |
| 11 | **Aqromarketinq və satış kanalları** | - Aqrar marketinqə və bazar strukturları;<br>Kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışına və formalşan satış marjaları.<br>Birbaşa və dolayı satış kanallarına dair biliklər;<br>Azərbaycanda kənd təsərrüfatı məhsullarının satış kanallarını. | Aqromarketinqə və satış kanallarının formalaşması ilə bağlı qərarların verilməsində bacarıqlar. |

| | | | |
|---|---|---|---|
| 12 | **Kənd təsərrüfatında risklər və aqrar sığorta** | Kənd təsərrüfatında risklərə və risklərin idarə edilməsi. Aqrar sığortaya və Azərbaycanda aqrar sığorta sistemi. | Kənd təsərrüfatında risklərə və sığorta sistemi ilə bağlı qiymətləndirmələr aparmaq sahəsində bacarıqlara. |
| 13 | **Kənd təsərrüfatının maliyyəsi və aqrar sahənin kreditləşdirilməsi** | - Kənd təsərrüfatının maliyyə resurslarının formalaşması mənbələrinə və kreditləşmənin xüsusiyyətlərinə dair biliklər;<br>- Operativ və maliyyə lizinqinə, müqaviləli kənd təsərrüfatı. | Kənd təsərrüfatının maliyyəsi və aqrar sahənin kreditləşdirilməsinə dair qiymətləndirmələr aparmaq bacarıqları |
| 14 | **Aqrar siyasət və ərzaq təhlükəsizliyi** | - Aqrar siyasətin məqsədləri və alətlərinə dair biliklərə.<br>- Ərzaq təhlükəsizliyinin mahiyyəti və təmin olunması yolları. | Aqrar siyasət və ərzaq təhlükəsizliyinə dair qərarlar vermək bacarıqlarını. |
| 15 | **Dünyada ərzaq ticarətinin tənzimlənməsi və ÜTT-nin Kənd Təsərrüfatına dair Sazişi** | - Dünya ərzaq sistemi və qlobal ərzaq zənciri;<br>- Dünyada kənd təsərrüfatı məhsulları ticarətində əsas meyillərnə və ərzaq təhlükəsizliyi probleminin idarəedilməsi sistemi.<br>ÜTT-nin Kənd Təsərrüfatına dair Sazişinə və Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvülüyü. | Dünyada ərzaq ticarətinin tənzimlənməsi və Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzv olmasına dair qiymətləndirmələr aparmaq bacarıqları. |

## X. Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında “Virtual universitet” bölməsində yerləşdirilir.

## XI. Mövzular

1.Aqrar sektorun xüsusiyyətləri və milli iqtisadiyyatda yeri
2.Aqrobiznesin strukturu və kənd təsərrüfatı subyektlərinin növləri
3.Kənd təsərrüfatı məhsullarının istehsalı və təklifi
4.Kənd təsərrüfatı məhsullarına tələb
5.Kənd təsərrüfatı məhsullarının bazar strukturları
6.Aqrar sektorda istehsal amilləri
7.Aqrar sektorda torpaq münasibətləri
8.Kənd yerlərində məşğulluq və kənd təsərrüfatında əmək münasibətləri
9.Texnoloji dəyişikliklər və infrastrukturun inkişafı
10.Yaşıl iqtisadiyyat” və aqrar iqtisadiyyatda ekoloji cəhətdən təmiz məhsulların istehsalı
11.Aqromarketinq və satış kanalları

12.Kənd təsərrüfatında risklər və aqrar sığorta
13. Kənd təsərrüfatının maliyyəsi və aqrar sahənin kreditləşdirilməsi
14.Aqrar siyasət və ərzaq təhlükəsizliyi
15. Dünyada ərzaq ticarətinin tənzimlənməsi və ÜTT-nin Kənd Təsərrüfatına dair Sazişi

## XII. Tələb olunan dərslik və dərs vəsaitləri

**Ədəbiyyat**

***Əsas dərslik***

1.Ə.Muradov E.Bağirzadə Azərbaycan iqtisadiyyati (infoqrafika)
2.Aqrar sferanin iqtisadiyyati və idarə edilməsi.Dərslik Baki 2011
3.Aqrobiznes və ərzaq təhlükəsizliyi.Dərslik Baki 2015
4.İ.H.İbrahimov Aqrar sahənin iqtisadiyyatı. ADİU. Bakı 2016

***Əlavə mənbələr***

5.İ.D.Abbasov Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının pirioritet istiqamətləri Bakı 2011
6.İ.D.Abbasov Azərbaycanın kənd təsərrüfatı 2010
7. Aqrar iqtisadiyyat. Dərslik. ADAU. 2022

## SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

## DƏRSƏ DAVAMİYYƏT

Təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Davamiyyət limiti üzrə yuvarlaqlaşdırma (7,5 q/b - 8 q/b) tətbiq edilmir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

## FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ (*Əyani təhsilalma forması üzrə)*

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

**B = (((b1+b2+b3+...+bn)/s)*m)/10**

**Burada,**

B - yekun aktivlik balı;

b - seminar dərslərində alınan müxtəlif ballar;

s - semestr ərzində verilən cavabların sayı;

m - aktivlik balına ayrılan maksimal bal;

10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən “0” bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə “0” bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - "əvəzgün" verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Qabiliyyət tələb edən fənlər üzrə ara qiymətləndirmə semestr ərzində yerinə yetirilən və hər biri 5 bal üzərindən qiymətləndirilən 6 fərdi işin (hər ay ərzində 2 iş olmaqla) qiymətləndirilməsi əsasında təmin olunur.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

***Aralıq qiymətləndirmə.*** Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara

təsir etmir. Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

## İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| | | |
|---|---|---|
| **91-100 bal** | **əla** | **A** |
| **81-90 bal** | **çox yaxşı** | **B** |
| **71-80 bal** | **yaxşı** | **C** |
| **61-70 bal** | **kafi** | **D** |
| **51-60 bal** | **qənaətbəxş** | **E** |
| **51 baldan aşağı** | **qeyri-kafi** | **F** |

***QEYD:*** İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.